# 2014-cü il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarətinin vəziyyəti

Naxçıvan Muxtar Respublikasının 2014-cü il ərzində 56 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi **517427,2** min ABŞ dolları olmuşdur. Bu müddət ərzində **408640,3** min ABŞ dolları dəyərində mal ixrac, **108786,9** min ABŞ dolları dəyərində mal idxal olunmuş, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo **299853,4** min ABŞ dolları təşkil etmişdir.2013-ci ilin müvafiq dövrü ilə müqayisədə 2014-cü ildə ixrac əməliyyatlarının həcmi 2 % (6224,7 min ABŞ dolları) artmış, idxal əməliyyatlarının həcmi isə 1 % (786,4 min ABŞ dolları) azalmışdır.



İxrac əməliyyatlarında xüsusi çəkisi böyük olan dövlətlərdən Türkiyə Respublikası, Türkmənistan Respublikası,İran İslam Respublikası,Rusiya Federasiyası,Gürcüstan Respublikası, Hindistan Respublikası və digərlərinin adlarını çəkmək olar. Hesabat dövrü ərzində 408640,3 min ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bunun 313480,7 min ABŞ dollarını, yəni ümumi ixracın 76,7 %-ni sənaye məhsulları, 95159,6 min ABŞ dollarını, yəni ümumi ixracın 23,3 %-ni isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir. Qeyd edək ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının ixracı 1,7 % , kənd təsərrüfatı məhsullarının ixracı isə 1,1 % artmışdır.




İdxalın strukturunda əsas yeri tutan əmtəələrin miqdarı və dəyəri aşağıdakı kimidir:

| | Dəyər(min ABŞ dolları) |
|---|---|
| 1. Sənaye məhsulları- | 43519,4 |
| 2. Nəqliyyat vasitələri və onların hissələri- | 36503,2 |
| 3. Ərzaq məhsulları- | 17835,3 |
| 4. Digərləri- | 10246,8 |
| 5. Tikinti materialları- | 682,2 |




İdxal əməliyyatlarının dövlətlər üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:



Qeyd etmək lazımdır ki, hesabat dövründə idxal əməliyyatlarında dövlət sektorunun payı 20004,3 min ABŞ dolları, yəni ümumi idxalın 18,4%-ni, özəl sektorun payı 78686,9 min ABŞ dolları, yəni ümumi idxalın 72,3%, fiziki şəxslər isə 10095,7 min ABŞ dolları, yəni ümumi idxalın 9,3%-ni təşkil etmişdir.




2014-cü ilin birinci yarımili ərzində müvəqqəti idxal rejimində muxtar respublikaya 435,5 min ABŞ dolları dəyərində, 54,1 ton mal gətirilmişdir.